


# "Dirili Qurbani məclisi" toplusu

Güney Azərbaycanda cənublu soydaşımız yazar-jurnalist Səhra xanım Rzayinin tərtibçiliyi və təqdimatı sayəsində “Dirili Qurbani məclisi” adlı almanax işıq üzü görüb. Topluda “Dirili Qurbani”nin adını daşıyan ədəbi məclis üzvlərinin yaradıcılığından nümunələr işıq üzü görüb. Qeyd edim ki, ustad Aşıq Qurbaninin də şeirlərindən nümunələrin yer aldığı bu kitabda məclisin sədri Yusif Dirilinin, məclisin təşkilat rəhbəri Malik Əhmədoğlunun, Əlirza Xələflinin, Tariyel Abbaslının, Şakir Əlifoğlunun, Sabir Şirvanın, Mehman Hüseynovun, Fərzalı Abbasəli oğlunun və başqalarının yaradıcılığından örnəklər fars qrafikasına uyğunlaşdırılmış ərəb əlifbası ilə nəşr olunub. Bu da cənublu qardaşlarımızın kitabda əksini tapmış “Dirili Qurbani” ədəbi məclisi” üzvlərinin haqqında verilən məlumatlar və əsərləri ilə tanışlığına imkan yaradır.

Şakir Əlifoğlu